**Odlar yurdu adlanan bu məmləkətin tarixində, mədəniyyətində öz yeri var Şuşanın. Onu əbəs yerə Qafqazın incisi, Azərbaycanın mədəniyyət mərkəzi, Qarabağın baş tacı, döyünən ürəyi adlandırmırlar.**



# Qədim şəhərin əbədi baharı

Hələ Vətən müharibəsinin davam etdiyi günlərdə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində demişdi: "İşğal edilmiş torpaqların hər bir qarışı, hər bir şəhər bizim üçün doğmadır, əzizdir. Mənim üçün hər bir kəndin dəyəri, qiyməti o biri kəndlə müqayisədə, o biri şəhərlə müqayisədə eynidir, bərabərdir. Ancaq siz də yaxşı bilirsiniz ki, Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar".

2020-ci ilin 8 noyabrı, Şuşanın Ermənistan silahlı qüvvələrinin işğalından azad edildiyi gün Azərbaycan tarixinə Zəfər Günü kimi yazıldı. Bu qədim şəhərin əbədi baharı o gün başladı.

Uca dağların başında qərar tutmuş gözəl məkan işğaldan azad edildikdən sonra yağı düşmən Vətən müharibəsində məğlubiyyətini etiraf etməli oldu.

## Torpaqların əsl sahibləri qayıdırlar

Düşmən tapdağından qurtulmuş ərazilərimizdə sürətlə tikinti, bərpa işləri həyata keçirilir. Bu gün Şuşanın şöhrəti daha müasir görkəmdə özünə qaytarılır. Şəhər sürətlə inkişaf edir. Azad Şuşanın yeni dövranı başlayıb.

Şuşa Azərbaycanın tarixi, mədəniyyət və memarlıq abidələri ilə zəngin olan şəhərlərindən biridir. Qəsbkar ermənilər işğal etdikləri digər rayon və şəhərlərdə olduğu kimi, Şuşada da tarixi keçmişimizi, mənəvi yaddaşımızı silmək üçün əllərindən gələni ediblər. Şəhərdəki mədəniyyət ocaqları, tarixi-memarlıq nümunəsi olan tikililər talan edilib, dağıdılıb və ya erməniləşdirilib. Şuşa şəhərində XVIII əsrə aid Şuşa qalasının divarları, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, karvansarayı, Molla Pənah Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacı Quluların malikanəsi, ikimərtəbəli karvansara, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Əbdürrəhim bəy Haqverdiyevin, Qasım bəy Zakirin, Mir Möhsün Nəvvabın, Süleyman Sani Axundovun, Nəcəf bəy Vəzirovun, Yusif Vəzir Çəmənzəminlinin, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin, Xan Şuşinskinin, tarzən Sadıqcanın evləri, Mamay bəyin evi, məscidi və bulağı, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri və digər qədim yaşayış binaları, tarix-memarlıq nümunələri, mədəniyyət ocaqları erməni vandalizminə məruz qalıb. Düşmənin vurduğu yaralar ağırdır. Ancaq dövlətimizin başçısının dediyi kimi: "İşğala baxmayaraq, Şuşa Azərbaycan ruhunu saxlaya bildi. Şuşaya gələn hər bir insan bunu görür. Hətta dağılmış vəziyyətdə, hətta işğal dövründə vandalizmə məruz qalmış şəkildə Şuşa öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi, sınmadı, bizi gözləyirdi, biz gəlməli idik və biz gəldik. Müzəffər xalq kimi gəldik".

İndi müzəffər xalqımız, qalib dövlətimiz Şuşanı yenidən gülüstana çevirir. Ötən il mayın 7-də Prezident İlham Əliyev "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" sərəncam imzaladı. 2022-ci ili isə dövlət başçısı "Şuşa ili" elan etdi. Bütün ölkə miqyasında "Şuşa ili" çərçivəsində bir-birindən maraqlı, yaddaqalan, möhtəşəm tədbirlər həyata keçirilir.

Daha bir qürur duyduğumuz xəbər də Azərbaycanın 270 yaşlı mədəniyyət paytaxtı, muğam-sənət beşiyi, alınmaz qalası Şuşa şəhərinin 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan olunmasıdır. Məlum olduğu kimi, bu barədə qərar Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY-a üzv ölkələrin Mədəniyyət Nazirləri Daimi Şurasının martın 31-də Türkiyənin Bursa şəhərində keçirilən növbədənkənar iclasında qəbul edilib.

## Dirçələn şəhər

Qarabağın hər yerində, həmçinin Şuşada Prezident İlham Əliyevin imzaladığı "İşğaldan azad olunmuş ərazilərdə şəhərsalma məsələləri haqqında" fərmana uyğun olaraq, bərpa-quruculuq işləri sürətlə aparılır. Qısa müddətdə Şuşanın Baş planı hazırlanıb. Artıq şəhərdə infrastruktur layihələri ilə yanaşı, tarixi, dini və memarlıq abidələrinin bərpası istiqamətində nəzərəçarpan işlər görülüb. Mədəniyyət paytaxtımızda tikinti-quruculuq işləri dövlət başçısının tapşırığına əsasən, şəhərin tarixi memarlıq xüsusiyyətlərinə uyğun aparılır. Prezident İlham Əliyev deyib: "Şuşanın tarixi simasını bərpa etməliyik. Hər hansı tarixi memarlıq ansamblına xələl gətirə biləcək başqa layihə orada icra edilməməlidir".

Şuşada "Xan qızı" bulağı bərpa edilib. Qısa müddətdə Heydər Əliyev Fondu tərəfindən dahi Azərbaycan şairi və ictimai xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksində təmir-bərpa və yenidənqurma işləri görülüb. Şəhərdə görkəmli Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin heykəli və dahi Azərbaycan şairi Molla Pənah Vaqifin büstü qoyulub. Xalq artisti Bülbülün ev-muzeyi bərpa edilib. Qala divarlarında təmir-bərpa işləri aparılıb. Üzeyir bəy Hacıbəylinin ev-muzeyi yenidən qurulur. Heydər Əliyev Fondu tərəfindən Aşağı Gövhər Ağa, Yuxarı Gövhər Ağa, Saatlı məscidlərində və Mehmandarovların malikanə kompleksində bərpa işləri həyata keçirilir.

Görülmüş işlər çoxdur. Amma nəzərdə tutulan işlər, planlar daha böyükdür.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2022.- 6 dekabr. - S.11.